# Görkəmli akademik, müdrik şəxsiyyət

**Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Milli aqrar elmimizin və təhsilimizin məbədi sayılan Azərbaycan Dövlət Aqrar Universiteti özünün görkəmli məzunları ilə haqlı olaraq həmişə fəxr edir. Akademiklər Validə Tutayuq, İmam Mustafayev, İlyas Abdullayev, Firuz Məlikov, Ələkbər Quliyev, Cəbrayıl Hüseynov, Müzəffər Abutalıbov, Musa Musayev, Vahid Hacıyev, Siddiqə Məmmədova, Məmmədtağı Cəfərov, Məmməd Salmanov, Məhərrəm Babayev, AMEA-nın müxbir üzvləri Ağaxan Ağabəyli, Kazım Ələkbərov, Rəhim Hüseynov, Məmmədemin Salayev və onlarca digərləri 1920-ci ilin dekabrından kənd təsərrüfatı fakültəsi kimi fəaliyyətə başlayan hazırkı Aqrar Universitetin ən layiqli məzunlarındandır. Onların sırasında ön yerlərdən birini tutan Azərbaycan təbiət elminin patriarxı, Əməkdar elm xadimi, Respublika Dövlət Mükafatı laureatı, müdrik şəxsiyyət, akademik Həsən Əlirza oğlu Əliyevdir.

Akademik Həsən Əliyev insanlıqla alimliyin vəhdətini özündə cəmləşdirən nadir şəxsiyyətlərdən biri olmaqla ağır zəhmətlə dolu sadə, şərəfli bir ömür yaşamış, zəngin, mənalı həyatının çoxunu doğma Vətənimizə, xalqımıza fədakarcasına sərf etmişdir.

1907-ci il dekabrın 15-də keçmiş Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Comərdli kəndində, Əlirza kişinin ailəsində ilk oğul uşağı dünyaya göz açır, adını Həsən qoyurlar. Kiçik Həsən ayağı yer tutandan ailənin böyük oğlu kimi atasının qolundan tutmuş, ona həyan olmuş, böyüklərə məxsus qayğı, ailə dolanışığı onu uşaqlıq dünyasından tez ayırmışdı.

İzzət xanımla Əlirza kişinin ailəsində böyüyən uşaqların hərəsinin bir sahədə istedadı olmuşdur. Ailənin böyük övladı Həsən Əliyev ilk dəfə parta arxasına 17 yaşında oturmuş və cəmi 10 il ərzində məktəb şagirdindən aspirantadək şərəfli yol keçmişdir.

Həsən Əliyevin həyatının ilk dövrü Gəncə ilə bağlıdır. O, 11 yaşında ikən bir müddət Gəncədə Şah Abbas məscidinin həyətindəki məktəbin beşinci sinfində təhsil alır. Sonralar 1924-cü ilədək Naxçıvan şəhərində muzdurluq edir, kənd axşam məktəbində oxuyur. 1925-ci ildə "Şərq qapısı" qəzetində onun "Bizə də teatr lazımdır", 1929-cu ildə "Molla Nəsrəddin" jurnalında "Müəllim lazımdır" adlı məqalələri dərc edilir.

Fövqəladə fitri qabiliyyəti və oxumağa olan xüsusi səyini nəzərə alaraq ona Kənd Təsərrüfatı Texnikumunda oxumağa zəmanət verilir, 1924-1930-cu illərdə Həsən Əliyev Naxçıvan şəhərindəki Kənd Təsərrüfatı Texnikumunda təhsil alır. Texnikumun sonuncu kurs tələbəsi olduğu müddətdə o, Gəncə qəzasında pambıq zərərvericilərinə qarşı mübarizə üzrə təlimatçı təyin edilir.

Bu illərdə Həsən Əliyev cavan və təşəbbüskar mütəxəssis kimi Zaqafqaziya şəraitində ilk dəfə olaraq Şəmkir rayonu ərazisində pambığın cərgəli əkilməsi üzrə təcrübələr aparır. Həsən Əliyev sonralar Naxçıvan "Pambıq birliyi"ndə aqrotexnik vəzifəsində çalışmış, 1930-cu ildə Gəncədəki Zaqafqaziya Pambıqçılıq İnstitutuna qəbul olunmuş, 1932-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universitetinin) aqronomluq fakültəsini vaxtından qabaq bitirmişdir.

Həsən Əliyev pambıqçılıq, üzümçülük, qoyunçuluq, həmçinin bitki ziyanvericilərinə qarşı mübarizədə xeyli təcrübə qazandığına, bilik və bacarığına görə müxtəlif vəzifələrə irəli çəkilmişdir. O, Gəncə şəhərindəki Qarayeri sovxoz və partiya məktəblərində müəllim işləmiş, 1932-1934-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun aspiranturasında təhsil almış, 1934-1935-ci illərdə Şirvan Zona Təcrübə Stansiyasının və Gəncədəki Azərbaycan Üzümçülük Təcrübə Stansiyasının direktoru vəzifələrində işləmişdir. O, ilk tədqiqat işini paxlalı bitkilərin yaşıl kütləsindən ayrılan üzvi maddələrin pambıq bitkisinin səpin və şumlama müddətindən asılı olaraq üzvi gübrə kimi təsirinin öyrənilməsinə həsr etmişdir. Bu tədqiqatlar Həsən Əliyevin bir torpaqşünas, aqrobotanik və ekoloq alim kimi gələcək elmi-tədqiqat fəaliyyətinin istiqamətini müəyyənləşdirmişdir.

Həsən Əliyev öz əsərlərinin böyük əksəriyyətini də məhz elmin bu sahəsinə həsr etmişdir. Həmin dövrdə Azərbaycanda elmə qarşı böyük həvəs yaranmaqla yanaşı, elmi-tədqiqatın geniş miqyasda aparılması üçün güclü kadr potensialı vardı. Bu səbəbdən də 1937-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradılır. Həsən Əliyev elmi işini davam etdirmək üçün Bakı şəhərinə gəlir, 1941-ci ilədək SSRİ Elmlər Akademiyası Azərbaycan filialının torpaqşünaslıq bölməsinin elmi işçisi və elmi katibi işləyir. Torpağın qədrini bilən Həsən müəllim xam torpaqların tədqiqi ilə məşğul olmağı qət edir, susuz, yarımsəhra, dağarası çökəkliklərdə səhraya çevrilmiş Qobustanın cənub-qərb hissəsinin arid torpaqlarının tədqiqinə başlayır. Uğurlu tədqiqatı ona "Pirsaat düzünün torpaqları və ondan istifadə yolları" adlı ilk monoqrafik əsəri (1940) bəxş edir.

1930-cu illərin sonu və 1940-cı illərin əvvəllərində Həsən Əliyevin apardığı tədqiqatlar təkcə onun böyük elmi fəaliyyətinin başlanğıcı kimi deyil, həmçinin V.V.Dokuçayev təliminə əsaslanan Azərbaycan torpaqşünaslıq elminin əsasının qoyulması kimi də çox qiymətlidir.

1941-ci ildə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti Həsən Əliyevə Stalin təqaüdü təyin edir. Həmin il iyunun 22-də Böyük Cahan Müharibəsinin başlanması onu Moskvaya getdikdə yolda haqlayır. Həsən Əliyev güzəştli olduğuna baxmayaraq, könüllü cəbhəyə yollanır, Xalq Daxili İşlər Komissarlığı ordusunun 59-cu alayının 36-cı Rostov briqadasının sərəncamına gəlir, burada rota komandirinin siyasi məsələlər üzrə müavini olur. 1941-1943-cü illərdə müharibədə iştirak edir, 1943-cü il martın 31-də Krasnodar vilayətində Sivistilovka adlanan yerdə ağır yaralanır. Hosbitalda xeyli müalicə aldıqdan sonra elmi əsərləri üzərində işləyir. 1943-1944-cü illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialının coğrafiya bölməsinin rəhbəri olur. Onun çoxşaxəli elmi fəaliyyəti torpaqşünaslıq, təbiəti mühafizə, coğrafiya, biologiya üzrə müxtəlif məsələlərin həllinə həsr edilmişdir. Həsən Əliyev 1944-cü ildə kənd təsərrüfatı elmləri namizədi elmi dərəcəsi almaq üçün "Böyük Qafqazın cənub-şərq yamacında çayların aşağı axınlarının torpaqları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonralar Həsən Əliyev Azərbaycan EA Nəbatat İnstitutunun direktoru olduğu illərdə səkkizcildlik "Azərbaycanın florası" (rus dilində) kitabının hazırlanmasına və çapına böyük əmək sərf edir, heyvandarlığın və əkinçiliyin inkişafı üçün yem bitkilərinin yetişdirilməsi və yaşıl konveyerin yaradılması sahəsində elmi tədqiqatlarını daha da genişləndirir.

Həsən Əliyevin çoxcəhətli və çoxşaxəli fəaliyyəti, mənalı və ibrətli həyat yolu əsl ziyalı şəxsiyyətinin ən tipik nümunələrindəndir. O, Bakıdakı Nəbatat bağına xüsusi qayğı göstərmiş, Azərbaycanın ayrı-ayrı rayonlarında (Gəncə, Mingəçevir, Lənkəran, Şuşa) onun filiallarının yaradılmasını arzu edirdi. "Bağ sərbəst, avtonom olsa, indikindən qat-qat yaxşı inkişaf edər" - deyirdi Həsən müəllim.

500-dən artıq elmi əsərin, o cümlədən bir çox monoqrafiyaların müəllifi olan bu böyük alimin elmi fəaliyyətinə tanınmış əcnəbi alimlər, o cümlədən A.A.Qrossheym, V.P.Smirnov-Loginov, R.V.Kovalyov, V.P.Volobuyev, Azərbaycanın görkəmli alimləri: akademiklər Yusif Məmmədəliyev, Mustafa Topçubaşov, Budaq Budaqov, Asəf Nadirov, Siddiqə Məmmədova, Məmmədtağı Cəfərov, Qərib Məmmədov, MEA-nın müxbir üzvləri Kazım Ələkbərov, Məmməd Emin Salayev, Xalq şairləri: Məmməd Araz, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Nəbi Xəzri, Nəriman Həsənzadə və bir çox başqaları çox böyük qiymət vermişlər. Yeri gəlmişkən qeyd edilməlidir ki, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü A.A.Qrossheym Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda botanika kafedrasının müdiri, professor V.P.Smirnov - Loginov kənd təsərrüfatı fakültəsinin dekanı, sonralar torpaqşünaslıq kafedrasının müdiri işləmişlər. Həsən müəllimin elmi yaradıcılığı bilavasitə Azərbaycan təbiətinin mühafizəsinə həsr olunmuş və o, bu sahədə çoxşaxəli işlər həyata keçirmişdir.

Həsən Əliyev məzunu olduğu Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, onun alimləri və tələbələri ilə daim əlaqə saxlamış, dəfələrlə bu ali məktəbdə görüşlər keçirmiş, elmi məruzələrlə çıxış etmiş, özünün dəyərli məsləhətlərini vermişdir. Belə görüşlərdən biri 1978-ci ildə indiki Aqrar Universitetin mühəndislik korpusundakı 500 nəfərlik akt salonunda keçirilmişdir. Azərbaycanın bölgələrini öz şəxsi fotoaparatı ilə qarış-qarış gəzib seyr edən Həsən müəllim ahıl yaşında salondakı professor-müəllim heyəti və tələbələrə zəngin Azərbaycan meşələrinin, onun təbii sərvətlərinin vəziyyəti və görülən tədbirlər barədə slaydlarla geniş məlumat vermişdi. Akademik ekologiyanın, havanın çirklənməsindən narahat olur və ürək ağrısı ilə qeyd edirdi ki, Bakı və Sumqayıt şəhərlərinin sənaye müəssisələrində bəzi işlər görülsə də, havanın tozlanması və çirklənməsi hələ də davam edir. Kirovabad (Gəncə) Alüminium zavodunun havaya buraxdığı mineral toz isə şəhərin havasını çirkləndirdiyi kimi, yaşıllığa və meyvə-tərəvəz məhsullarına da xeyli zərər vurur.

Azərbaycan Dövlət Aqrar Universitetinin qədirbilən kollektivi daim 86 illik mənalı ömür sürmüş görkəmli məzunumuz Həsən Əliyevin xatirəsini əziz tutur, onun zəngin yaradıcılığına və şəxsiyyətinə hörmət bəsləyir.

1972-ci ildən etibarən respublikanın ayrı-ayrı bölgələrində Həsən Əliyev tərəfindən radioaktiv elementlərin miqdarı öyrənilmiş və müxtəlif torpaq tiplərində bu elementlərin miqdarının xəritə-sxemi tərtib edilmişdir. Bununla yanaşı, Gəncə şəhərində sənaye tullantılarının ətraf mühitin ekoloji vəziyyətinə təsiri tədqiq edilmişdir.

Tədqiqatçı tərəfindən Böyük Qafqazın torpaqlarının sistematikasının tərtibi, ona sonralar "Böyük Qafqazın torpaqları (Azərbaycan SSR daxilində)" monoqrafiyasını tamamlamağa imkan vermişdir (1978).

Həsən Əliyev ömrünün 60 ildən çoxunu dövrünün ən vacib məsələlərinə sərf edərək müxtəlif mövzularda elmi əsərlər çap etdirmişdir. Onun elmi əsərləri ABŞ, Fransa, Belçika, Almaniya, Şərqi Avropa ölkələri, Vyetnam, İsrail və Yaponiyada dəfələrlə nəşr edilmiş, elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Akademik Həsən Əliyevə elm sahəsində səmərəli fəaliyyətinə görə Əməkdar elm xadimi fəxri adı verilmiş, o, Azərbaycanın təbii ehtiyatlarından səmərəli istifadə üzrə kompleks işlər silsiləsinə görə Respublika Dövlət Mükafatına layiq görülmüş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif olunmuşdur. 1950-ci ildə "Şərəf nişanı", 1954-cü ildə "Qırmızı Əmək Bayrağı", "Qırmızı ulduz", 1977-ci ildə "Lenin", 1982-ci ildə "Oktyabr İnqilabı" ordenləri, SSRİ XTNS-nin gümüş, bürünc medalları, N.İ.Vavilov adına medalla təltif olunmuş və bir sıra digər təltiflərə layiq görülmüşdür. 1980-ci ildə onuncu, 1985-ci ildə on birinci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

1952-ci ildə Həsən Əliyev Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, 1982-ci ildə Amerika Birləşmiş Ştatlarının Arizona ştatındakı Tukson Dünya Universitetinin Təbiəti Mühafizə üzrə fəxri elmi və mədəniyyət doktoru, Böyük Britaniya Kraliça Biblioqrafiya Cəmiyyətinin fəxri üzvü seçilmişdir.

Həsən Əliyev elmdə nadir şəxsiyyətlərdən biri olmaqla həm də böyük ürək sahibi idi, əsl vətənpərvər idi, qəlbən təbiətə vurğun insan idi. O deyirdi: "Təbiət saysız-hesabsız nadir, gözəl abidələrin müəllifidir", "Mübaliğəsiz demək olar ki, Göygöl dünyanın gözəl guşələrinin ən gözəlidir".

35-dən artıq elmlər namizədi və elmlər doktorunun rəhbəri, bir çox monoqrafiyanın, o cümlədən 1976-cı ildə ilk dəfə nəşr olunmuş "Həyəcan təbili" adlı monoqrafik əsərin və yüzlərlə elmi-kütləvi məqalənin müəllifidir.

Həsən Əliyev xarici ölkələrin müxtəlif beynəlxalq konqreslərində, konfranslarında, simpoziumlarında və forumlarında elmi məruzələrlə çıxışlar etmişdir. Onun çoxcəhətli elmi fəaliyyəti bu göstərilənlərlə məhdudlaşmır. O, kənd təsərrüfatı elminin bir sıra mühüm problemlərinin tədqiqi ilə də məşğul olmuş, onu yeni nəticə və müddəalarla zənginləşdirmişdir.

Elmi yaradıcılığı və pedaqoji fəaliyyəti ilə yanaşı, Həsən Əliyev bir çox ictimai işlərlə də fəal məşğul olmuşdur. O, Ümumittifaq Torpaqşünaslıq Cəmiyyəti Azərbaycan filialının sədri, Azərbaycan SSR Elmlər Akademiyasının Təbiəti Mühafizə üzrə komissiyanın sədri, Azərbaycan SSR Coğrafiya Cəmiyyətinin prezidenti vəzifələrini yerinə yetirmişdir.

Akademik Həsən Əliyevin böyük insani keyfiyyətlərindən biri də gəncləri elm öyrənməyə sövq etməsi idi. Azərbaycanın ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında və mərkəzlərində çalışmış və hazırda çalışan onlarca ekoloq, torpaqşünas alim məhz Həsən Əliyev məktəbinin yetirmələridir.

Bu böyük insan deyirdi: "Mən xalqıma çox borclu olduğumdan borcumu ödəyirəm".

"Yaxşılıq tumu əkən yaxşılıq götürər", - deyib dahi şairimiz Nizami Gəncəvi. Akademik Həsən Əliyev yaxşılıq tumunu əkənlərdən olub. O, xeyirxahlıq, mərdlik, düzlük, qayğıkeşlik, vətənpərvərlik, insanpərvərlik təcəssümü kimi qəlbimizdə yaşayır və yaşayacaqdır.

"Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2017-ci il tarixli 2655 nömrəli Sərəncamından irəli gələn müddəaların yerinə yetirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinin və ADAU-nun tədbirlər planlarına əsasən universitetdə xüsusi komissiya yaradılmış, əmrdə yubiley ilə bağlı silsilə tədbirlərin (elmi konfrans, seminar, əsərlərinin sərgisi, tələbələrin rəsm əsərlərinin və inşa yazılarının müsabiqələri, orta məktəblərdə qiraət günləri, ağacəkmə kampaniyası, dendroloji bağın yaradılması, jurnal və bülletenlərdə xüsusi buraxılışın çap edilməsi, "Akademik Həsən Əliyev ADAU-nun məzunudur" kitabın nəşri və təqdimatının keçirilməsi və s.) 2017-ci təqvim ili ərzində universitetdə yüksək səviyyədə təşkili təsbit edilmiş, dərhal bu tədbirlərin keçirilməsinə başlanılmışdır.

2017-ci il martın 3-də akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş "Təbiəti sevənlər unudulmur" mövzusunda seminar məzunu olduğu aqronomluq fakültəsində keçirildi. ABŞ-ın İllinoys Universitetinin professoru, Azərbaycan Dövlət Aqrar Universitetinin fəxri doktoru Məhəmməd Babadostun da iştirak etdiyi bu seminarda Azərbaycanda coğrafiyanın, torpaqşünaslığın, əkinçiliyin, bitkiçilik elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin, o cümlədən ekologiya və meşəçiliyin simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətlərindən danışıldı. Seminar iştirakçıları Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr verən görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirməsini vurğulamış, qeyd edilmişdir ki, bu görkəmli akademikin cəmiyyətin ekoloji maariflənməsinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verməsindən danışılıb və bildirilib ki, onun "Həyəcan təbili" əsəri təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət və çağırışdır.



Seminardan öncə aqronomluq fakültəsinin 0,8 hektara yaxın ərazisində akademik Həsən Əliyevin adını daşıyacaq dendroloji bağın əsası qoyuldu, bağda ağac, kol əkininə başlanıldı. Fakültənin professor-müəllim, tədris-köməkçi və tələbə kollektivinin iştirak etdiyi ağacəkmə kampaniyasında qısa vaxt ərzində Cənubdan, Böyük və Kiçik Qafqazdan gətirilən 150-dən çox ağac, o cümlədən relikt və endem əkildi, ilin sonunadək bağda yeni növ ağac və kolların əkiləcəyi qərara alındı. Dendroloji bağ ekologiyanın sağlamlaşdırılması ilə yanaşı, tələbələrin təcrübə sahəsi kimi də mühüm əhəmiyyət daşıyacaqdır.

2017-ci il martın 10-da ADAU-nun inzibati binasının iclas salonunda akademik Həsən Əliyevin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Həsən Əliyev və Azərbaycan təbiəti" mövzusunda elmi-nəzəri konfrans keçirildi.

Konfransdan öncə Həsən Əliyevin əsərlərindən ibarət sərgi təşkil edildi.

Həmin tədbirlər çərçivəsində ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovun müəllifliyi ilə universitet Elmi Şurasının qərarı əsasında yenicə çapdan çıxmış "Akademik Həsən Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin məzunudur" adlı monoqrafiya hazırlandı və sentyabrın 28-də təqdimat mərasimi keçirdi.

Kitabda akademik Həsən Əliyevin həyat və yaradıcılığı, 110 illik yubileyi ilə bağlı həyata keçirilən tədbirlər və xatirələr öz əksini tapıb. Kitaba akademiklər Məhərrəm Babayev və Fuad Əliyev rəy veriblər.

Biz alimlər tam əminik: nə qədər ki, doğma Azərbaycanımız var, akademik Həsən Əliyev xalqımızın qəlbində daim yaşayacaq və yad ediləcəkdir.

**İbrahim CƏFƏROV,**
**ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor.**